


**İLTİMAS SƏMİMİ**

*Azərbaycan Yazıçılar Birliyi üzvü*
*Prezident mükafatçısı*


## ÇATSIN

Salam bu sevgini yaşadanlara,
Ürəyi dəniztək çağlasın hər an.
Yağışlı payızı dönsün bahara,
Olmasın nə kədər, nə acı hicran.

Dönüb dastanlara Məcnundan gəlir,
Könlündən keçəni Leyli duyurmu?
Ah çəkir, sədası göyə yüksəlir,
Dağları titrədən fəryadıdır bu.

Qəlbi ovunduran bircə baxışa,
Zamanı hədiyyə, vaxtı pay verər.
Öz saf eşqi ilə yenə baş-başa,
Sevinib özünə bəxtəvər deyər.

Sevgi lisanında Kərəm danışır,
Fərhad cuşa gəlib çapır dağları.
Kərəm külə dönür, Əsli alışır,
Şirin nəfəsiylə əridir qarı.

İntizar çəkməsin o qara gözlər,
Gülüşün ömrümə qoy ömür qatsın.
Bir ömür sevinib gülən bəxtəvər,
Sevənlər hər zaman murada çatsın.

**02.01.2024**

## HƏLƏ

Çevirib üzünü keçib gedəcək,
Dolar bulud-bulud gözləri bir az.
Köksündə ürəyi yanar məşəltək,
Dönüb bir də geri boylanıb baxmaz.

Acı xatirələr nə yaman imiş,
Onu xatırında daşımaq zülüm.
Danışıb gülənlər xoşbəxt deyilmiş,
Keçdiyi hər sınaq bir vaxtsız ölüm.

Əlləri qoynunda xəyala dalan,
Nə göylər sənindi, nə yer sənindi.
Hər şeyi dərd edib qəlbinə salan,
Xoşbəxtəm söyləyib de, kim sevindi?

Bəlkə alanmısan yazın ətrinə,
Bəxtəvər sanmısan bəşəri belə.
İnsana qurtuluş ölümdür yenə,
Kimsə qurtulmayıb ölümdən hələ.

**03.01.2024**

## MƏLƏKLƏR SEVİR

Hələ ki yorulub əldən düşməyib,
Yenə xəyalında bir dünya qurur.
Yazın tər gülünə min nəğmə deyib,
Şeir dünyasının bir Məcnunudur.

Qarşında baş əyir, sanki göy özü,
Dağlar da bir qarış kiçilir elə.
Çaxan bir şimşəkdir şairin sözü,
Durub baş əymәyib kimsəyə hələ.

Qayalar əyilər, dağlar əyilər,
Nadana, cahilə əyilməz şair.
Soyu Nəsimidən o haqqı deyər,
Onu Tanrı sevir, mələklər sevir.

**03.01.2024**

## BU HİCRAN

Arzular bir az da böyüdü, gülüm,
Ömür gödəlsə də, ümid tükənmir.
Döyməsin qapımı bir vaxtsız ölüm,
Bu aylar, bu illər ömrümdən gedir.

Gərəkmi bu qədər yarı incitmək,
Nazın göy titrədər, yeri yandırar.
O sərt baxışlara dözərmi ürək,
Qayanı qum edib, daşları qırar.

Bu nə səadətdir, nə də ki sevinc
Gözlərim yollardan çəkilmir bir an.
Sevgi dünyasına , gəl, sən də and iç,
Bitsin bu ayrılıq, bitsin bu hicran.

**06.01.2024**

## OLAR

Yenə gözlərindən sevgi nur saçar,
Bitər bu intizar, bitər bu hicran.
Səadət üzünə bir qapı açar,
Qəlbin məhəbbətlə döyünər hər an.

Ruhu dəniz kimi coşub çağlayır,
Çəkdiyin əzablar arxada qalar.
Sevincli günlərin ətirli bahar,
Sevgilin əbədi həmdəmin olar.

**08.01.2024**

## DAŞ KİMİ

Bahar yağışı tək
Ömür çox qısa.
Gözlərim dörd olub
Baxır yollara.
Yollarda bir kimsə
Görünmur bu dəm.
Demə, təkəm
Bu yer üzündə,
Gəlmir qulağıma
Bir serçə səsi,
Bir uşaq qəh-qəhsi.
Elə bil yer üzü sükut içində
Dəniz də dayanıb
Coşub çağlamır.
Zaman öz yerində
Durub daş kimi...

**08.01.2024**

## ƏBƏDİ SÖZƏM

Sənsiz qış kimidir kainat mənə,
Gəl, qaytar geriyə baharı, yazı.
Ayımız, ilimiz xoş keçsin yenə,
Eşqdir başdan-başa bu alın yazı.

Bu qədər tərəddut de, nəyə gərək?
Arada ehtibar, güvən vardısa.
Dönməz istəyindən sevən bir ürək,
Sevəcək hər zaman bəxtiyardısa.

Sən mənim gur təbim, gur ilhamımsan,
Qaynayan bulağam, coşan dənizəm.
Ən böyük sayğımsan, ehtiramımsan,
Dillərdən düşməyən əbədi sözəm.

**10.01.2024**

## ƏZABDIR

Əlləri qoynunda
Dörd yanı xatirələr.
Yeriməyə gücü yox,
Danışmağa həvəsi.
Sanki bu yer üzü
Qıfıllanmış qapıdır.
Qapını arxasında,
Hər insan məhbus kimi.
İtirdiyi doğmalar
Bir-bir düşür yadına.
Ömürdən ötən hər an,
Sanki min ilə dönür.
Nə səs yetir,
Nə də əl.
Xatirəyə dönən an,
Başdan-başa istirab,
Başdan-başa əzabdır.

**11.01.2024**

## İTİRMƏZ

Duymaz ruhunu
Köksündə ürək deyil,
Bir parça daşdır.
Gözündə bu yer üzü
Qarlı qışdı elə bil.
Yanından səssiz-səmirsiz ötər,
Nə ahını eşidər,
Nə dərdini anlayar.
Bu da bir alın yazı,
Dörd tərəfin anlamaz,
Ruhunda yad sevgisi,
Başında özgə hava.
Səninlə eyni yerdə ,
Amma kimliyin dumaz.
Darıxma, canım, gözüm,
Qızıl palçığa düşsə
Dəyərini itirməz.

**13.01.2024**

## EYLƏYİR

Həvəsi tükənməyib,
Yorğunluğunu çoxdan
Unutmuş.
Ruhu çağlayan dəniz,
Arzuları hesabsız.
Zamanı köksünə sıxıb
Yerə-göyə xatirələr söyləyir.
Ümidi göylər qədər.
Nə canında bir ağrı,
Nə qəlbində qəm-kədər
Bir az bahar kimidir,
Gül qoxuyur hər sözü.
Bir az dəniz kimidir,
Coşub, daşır, çağlayır.
Bir az da ay kimidir,
Qaranlıq gecələri
Nurlu səhər eyləyir.

**13.01.2024**

## QORU İZİNİ

Zamanı geriyə qaytara bilsəm,
O hissi yenidən yaşayarıq biz.
Bu acı həsrəti qəlbimdən silsəm,
Ötüşər günümüz qəmsiz, kədərsiz.

Mənim dağ səbirim, qaya dözümüm,
Tablandım sevgimin hər sınağına.
Bəllidir günəşə, aya dözümüm,
Söz qoşdum o gülün al yanağına.

Getdi baxışından payız sərtliyi,
Duydu ürəyimin sevgi hissini.
Sevgi pir, sevgi bir qəlbimiz iki,
Qoru öz yolunu, qoru izini.

**14.01.2024**

## DÖNÜR ZƏHƏRƏ

Ayları, illəri belə yaşadıq,
Döndü xatirəyə ömrün hər anı.
Bilmədik qəmliyik, yoxsa ki şadıq,
Deyindik, əvvəlki xoşbəxtlik hanı?

Ötən illərimiz əngin göylərtək,
Yetməyir əlimiz bircə anına.
Yenə köksümüzdə sızlayır ürək,
Kimsə tablamayır qıyır canına.

Nə çoxdur ömrünün imtahanları,
Hər ürək tablanmır çətinliklərə.
Bəzən qışa dönür ömür baharı,
Uddulan hava da dönür zəhərə.

**16.01.2024**

## YIXILACAQSAN

Əlləri yetməyən
Əngin göylərə,
Gözləri zilləmə.
Ordan nə səadət,
Nə sevinc gələr.
Nə qışın çevirib
Bahar olacaq,
Nə də ki göz yaşın
Quruyar, barı.
Əgər dəyişmirsə
Tale yazısı,
Əgər ilahidən
Bəxtin budursa,
Əgər ağlamağın
Mənasızdırsa.
Gözləri zilləmə
Əngin göylərə,
Yola bax,
Budrayıb yıxılacaqsan.

**16.01.2024**

## DAYANA BİLMİR

Soyuq ürəklərdən sevinc ummana,
Dünya başdan-başa zindan kimidir.
Bütün doğrularda dönür yalana,
Həyat nə mehriban, nə səmimidir.

Demə, qismətinə sevinc düşməyib,
Xəyalı göylərin yeddi qatında.
Əyilməz qəddləri fəqət dərd əyib,
Ümidlər, gümanlar hicran adında.

Soyuqdur torpağı, soyuqdur suyu,
Hər ürək dərdlərə tablana bilmir.
Günahın vardırsa, gəl, günahın yu,
Bu dünya fırlanır, dayana bilmir.

**19.01.2024**

## SRVGİMDİR

Heç kölgən də
Ola bilmədim,
Bir ömür
Arxanca düşüb
Gəzəm bu yer üzünü.
Sənə sevincim deyib,
İçimdə ki,
Arzularım ot-ot göyərdi,
Yarpaq-yarpaq boy atdı.
Ümidim gecələr səhərəcən
Yazdığım nəğmələr,
Bir də sənə olan sevgimdir.

**19.01.2024**

## YAŞAYIRAM

Harayıma
Bir kimsə yetmədi.
Elə bil bu yer üzündə
Bir kimsə yoxmuş.
Sükuta qərq olan
Bu cahan,
Göz yaşlarını içinə axıdır.
Bir kimsə tapılmır,
Dərdimizi anlaya.
Bu yer üzü
Taleyimi,
Mən də bu yer üzünün
Taleyini yaşayıram.

**20.01.2024**

## ÜMİDİ SÖNƏR

Şairin ilhamı sevgidən gəlir,
Günəşə bənzəyir ilham pərisi.
Çaxan şimşəklərə sözü tən gəlir,
Dağları titrədər onun gur səsi.

O elə Məcnun tək eşqinə sadiq,
Verər öz canını sevgi yolunda.
Qəlbini coşduran şeirdir, sözdür,
Ümid var, güman var, inam var onda.

Toxuma qəlbinə qırılar qəfil,
Bu dünya gözündə zülmətə dönər.
Sevgi müqəddəsdir bir oyun deyil,
İnamı qırılsa, ümidi sönər.

**27.01.2024**